ədalət.-2018.-27 dekabr.-S.8.

# QƏZƏLLƏR



ZAKİR BAYRAMLI

***

Borcluyuq biz hamımız verməyə bir can Vətənə,
Edərik istəsə hər an onu qurban Vətənə.

Gəzmişik çöllərini, dağ və düzənliklərini,
Bu gözəllikdə görüb olmuşuq heyran Vətənə.

Yeni saldıqca şəhər, kəndləri etdikcə abad,
Açmışıq düşməni ram etməyə meydan Vətənə.

Gəzir azad, dolaşır dünyanı şan-şöhrətimiz,
Verilib söz deməyə bir belə dövran Vətənə.

Biz bu gün şad yaşayır, güclü cəmiyyət qururuq,
Baş əyir "Kaspi" kimi bir böyük uman Vətənə.

Dar günündə hayına çatmağa bizlər dayanıb,
Qoymarıq kimsə yaza məhvinə fərman Vətənə.

Könlünü şad elə, Zakir, demə təkdir obamız
Yaraşır ta ki, qədimdən ulu Şabran Vətənə.

***

Gəl çıxaq seyrə baxaq, gör nə busat var Bakıda.
Dəyişib görkəmini, başqadı bulvar Bakıda.

Köhnəlikdən bir əlamət üzə çıxmır gözünə
Ucalır göylərə son dəbli binalar Bakıda.

Abad olmuş küçələr, həm də genişdir necə də
Bəzəyir park və xiyabanları "küknar " Bakıda.

Çöl- çəmən ətri yayır parklarının gül- çiçəyi
Açılır hər tərəfə körpülü yollar Bakıda.

Bürüyür get-gedə ağ üzlü binalar şəhəri
Nə qədər insanımız sakin olubdur Bakıda.

İdmanın hər növünə bax nə saraylar tikilib
Oynanır dünyada ən güclü oyunlar Bakıda.

Dolaşır yer üzünü şöhrəti baş kəndimizin
Unudar düşsə yolu Londonu lordlar Bakıda.

Hər tərəfdən bu yerə gündə turistlər də gəlir,
Bu gözəlliklərə heyran qalır onlar Bakıda.

Zakir, aç gözlərini bax gecə fəvvarələrə,
Səni məftun edəcək çox belə anlar Bakıda.

***

Can qoyardım yoluna, bir də qayıtsaydı anam.
Yüyürərdim qucuna, qolların açsaydı anam.

Qayıdardım təzədən körpə, uşaq çağlarıma,
Həm mənə layla deyib, həm özü yatsaydı anam.

Dolanardım başına bəlkə də pərvanə kimi,
Şam tutub yollarıma, nura boyatsaydı anam.

Tez durardım yuxudan, heç onu incitməz idim,
Çağırıb asta, şirin səslə oyatsaydı anam.

Xoş gələrdi, məni ərk ilə söyüb danlamağı,
İnciməzdim, qanımı gündə qaraltsaydı anam.

Gər hüzurundasa Ya Rəbb, sözümü söylə ona,
Nə olardı dirilib hayıma çatsaydı anam?

Xidmətində dayanıb, həm də çəkərdim nazını,
Qoymaz idim hər işə, addımın atsaydı anam.

Baxmayıb yaşıma, Zakir kimi nadinclik edər,
Qışqırardım, qulağımdan yenə dartsaydı anam.

***

Hamının mənzilinə sakin olubdur qocalıq.
Dən salıb saçlarına,hətda yolubdur qocalıq.

Milyon illərdi gəzir bəlkə də o yer üzünü
Qoşulub çaylara ummana dolubdur qocalıq.

Nə ki, insanlara, heyvanlara lap tez yoluxur
Öldürür, ölmür özü, " sura " qalıbdır qocalıq.

Kişi olsun, ya qadın, fərqi nə imiş ki, ona
Güman etmə dayanıb,fikrə dalıbdır qocalıq.

Kişini mindiyi öz nər dəvəsindən düşürür
Arvadı ərdən uzaq,ayrı salıbdır qocalıq.

Olmayır getdiyi yoldan geri qaytarmaq onu
Başımız üstünü vaxtsız da alıbdır qocalıq.

Çoxunun ömrünə ən yaxşı çağında soxulub
Döndərib əqrəbi xərçəngə çalıbdır qocalıq.

İdmana, pəhrizə aldanma a Zakir qulaq as
Qalxdığın dağlara da çox ucalıbdır qocalıq.

***

Səbr elə, gözlə məni sevgili yarım, gəlirəm.
Yetişibdir bilirəm bağdakı narım, gəlirəm.

Oxudum sevgi ilə yazdığın eşq məktubunu,
Ey məni kama çəkən nazlı nigarım, gəlirəm.

Hicranın çatdı sonu, indi vüsalın dəmidir
Həsrətəm ağuşuna güllü baharım , gəlirəm.

Səni çox gözləmişəm, izləmişəm yollarını
Mən sənin səyyadınam, sənsə şikarım, gəlirəm.

Taleyin güldü üzü, parladı baxt ulduzumuz
Yolum artıq yarıdır, ey vəfadarım, gəlirəm.

Bu görüş dəvətinə yox deyə bilməzdim inan
Həmdəmim,sevgi həyatımda mədarım, gəlirəm.

Zakirəm, yox daha taqət ki, dözəm ayrılığa
Kamanı köklə , segah üstdədi tarım, gəlirəm.

***

Könlümün həmdəmisən, gördüyüm andan bu yana.
Sənə yarım deyirəm, aşiq olandan bu yana.

Sən mələksənmiş a dilbər,yerişindən bilinir
Əndamın çox yaraşır sərri- xuraman boyuna.

Qonağımdır mənim hər gün səni görmək ümidi
Səbr ilə gözləyirəm baxtımı, bəlkə oyana.

Gəl görün gözlərimə,qoyma darıxsın ürəyim
Başlayaq hakimi eşq adlı o məşhur oyuna.

Mənə naz eylə, əzab ver, qula döndər , dözərəm
Dözmərəm ayrılığa, getmə gözümdən o yana.

Elə bənd olmuşam, hicran kəsə bilməz yolumu
Qorxuram hansısa əğyar aramızda dayana.

Zakirəm, ol mənə məhrəm, yönünü sal yanıma
Yandır eşqin çırağın,nuruna qəlbim boyana.

***

Sevgisi yoxsa əgər çəkmə cəfasın o yarın,
Gözləmə, əhdə dönükdürsə vəfasın o yarın?

Könlünə vermə əzab, anda sədaqətli deyil,
Kökləyiblər sənə yad əqlə qafasın o yarın.

Aldanıb işvəsinə, hər dəfə uydun nazına,
Görmədin könlünə xoş zövqi-səfasın o yarın.

Zövqünü oxşamayır, özgə sayaqdır yerişi,
Qəlbinə qoyma yaxın, alma qadasın o yarın.

Süzdürüb qaş-gözünü canına odlar salacaq,
Görəcəksən hələ çox hökmü-ədasın o yarın.

Səni bimar eləyib saxta gözəlliklər ilə,
Dərdinə sanma əlac, içmə dəvasın o yarın.

Zülfünə çəkdi sığal, vurdu bəzək çöhrəsinə,
Amma heç dinləmədin sevgi sədasın o yarın.

Nə vuruldun belə Zakir, bu vəfasız gözələ?!
Verəsən birdəfəlik bəlkə cəzasın o yarın?